# İSA İSMAYILZADƏ:
# SÖZ HƏSRƏTİ

85

*(Şəxsiyyəti və yaradıcılığı)*

**BAKI-2026**

**Məsləhətçi:**
**Araz İSMAYILZADƏ**

**Tərtib edən və çapa hazırlayan:**
**Nəriman ƏBDÜLRƏHMANLI**

**Rəyçi:**
**Bədirxan ƏHMƏDLİ,**
***Filologiya elmləri doktoru, professor***

**Redaktor:**
**NURAFİZ**

**İsa İsmayılzadə: SÖZ HƏSRƏTİ. Şəxsiyyəti və yaradıcılığı.** Bakı, "Qanun" nəşriyyatı, 2026, 496 səh. (16 səh. blok), 300 nüsxə.

Altmışıncılar ədəbi nəslinin istedadlı sıra nəfəri, görkəmli şair, publisist, tərcüməçi, redaktor, təəssübkeş ziyalı və vətəndaş İsa İsmayılzadənin (1941-1997) anadan olmasının 85 illiyinə həsr edilmiş topluda poetik və publisistik irsindən seçmələr, tanınmış qələm sahiblərinin onu əsərləri haqqında məqalələri və xatirələri, şairin dialoqları, torpaq övladı və ailə başçısı kimi özünəməxsus portret cizgiləri, eləcə də ona həsr edilmiş şeirlər toplanmışdır.

Ümid edirik ki bu toplu İsa İsmayılzadənin insan və yaradıcı portretini tamamlamağa yardım göstərəcəkdir.

AB 022051 / İN 0764

© Nəriman ƏBDÜLRƏHMANLI, 2026

# ÖNSÖZ YERİNƏ

## BİR DƏ GÖRƏRSİNİZ...

*Dostlarıma, əzizlərimə*

…Bir də görərsiniz mən də getmişəm,
Bir də görərsiniz,
yoxam dünyada.
Sizin gözünüzdən elə itmişəm,
Çətin,
Çətin yolunuza çıxam dünyada.

Başını bulayıb, köks ötürən də,
Əlini dizinə çırpan da olar,
Tüstüsü başından çıxan da olar,
Mənsiz
bir ömürdən-gündən usanan,
Başdaşına dönüb, baxan da olar.

Yığışın bir yerə, yığışın, dostlar,
Sizin aranızda
sizdən xəbərsiz
Mənə də, mənə də bir yer tapılar.
Dinib-danışmaram, susaram onda.
Neyləyim, neyləyim, açılmaz daha



# İSA İSMAYILZADƏ: AVTOPORTRET

## SİZ KİMSİNİZ?

*"Sizin dünyaya gəlişinizlə bağlı söhbətlər, hadisələr, izahlar?"* Nə deyim, vallah... Mənə elə gəlir ki, dünyaya gəlişimlə bağlı hər şeyi Tanrı özü yazıb – nə vaxt gəlməliyəm, necə gəlməliyəm, kim, nəçi olmalıyam – bunların hamısı böyük Yaradanın iradəsi ilə bağlıdır, biz biçarə bəndələr onun işinə qarışa bilmərik. Bu, mənim inamımdır, əqidəmdir, heç kəs məni bu inamdan, əqidədən döndərə bilməz; bu, Günün doğması, səhərin açılması, axşamın düşməsi kimi bir şeydir...

Pasporta inansaq, 1941-ci il martın 15-də anadan olmuşam, ona görə *"pasporta inansaq"* deyirəm ki, rəhmətlik anam, yazda yox, *"qorabişirən ayında",* yəni iyulda dünyaya göz açdığımı söyləyirdi. İndi hər dəfə martın 15-i gələndə uşaqlarım, ömür-gün yoldaşım əl-ayağa düşürlər, mənim ad günümü qeyd eləmək istəyirlər, mənsə, saymazyana-saymazyana gülümsünürəm, düşünürəm: *"Görəsən, bunlar kimin ad gününü bayram eləmək istəyirlər?"*

Gürcüstanın *(əslində, Azərbaycanın – çünki tarixdən bəllidir ki, İran şahı Nadirin "qəzəbi", şıltaqlığı üzündən bütöv Borçalı qəzası Gəncə quberniyasından alınıb Tiflis quberniyasına verilib – 1976-cı ildə)* Aran Borçalısı sayılan Qarayazıda doğulmuşam. Atam Mustafa da, anam Ayna da *(hər ikisi dünyasını dəyişib)* "anadangəlmə" kolxozçu olublar; əslində, hər ikisi varlı-hallı nəsildən olub. Atam tərəfi Bozoğlanlı, anam tərəfi – Qanabdullalı nəslindən...

Sovetlər gəlib hər şeyi əllərindən alıb. İndi də Sarvanın *(Marneuli rayonunun)* İkinci Kosalı və Lejvəddinli kəndlərində bizim nəsli yaxşı tanıyırlar. XX yüzilliyin əvvəllərində düşmənçilik üstündə ordan Qarayazıya köçüblər.

Atam – son dərəcə sərt, düzlük, halallıq əsiri olub. Uzun müddət kolxozda briqadir işləsə də, həmişə kasıb olub. Həmişə, mən gözümü açandan, özümü tanıyandan "qara damda" yaşamışıq, evimiz həmişə damıb. Atam evə bir tikə də olsa haram çörək gətirməyib.

Balalarını da ömrü boyu halallığa alışdırıb. Sən deyən savadı da yox idi, amma, Kirili öyrənmişdi, briqadir olan vaxtı bütün naryadları səliqə-sahmanla özü yazardı. Dini savadı olub, "Qurani-Kərim"dən ayələr oxuyardı, təkcə qohum-əqrəbasının yas yerlərində dua verərdi, öz evimizdə yasin oxuyardı. Hətta, yadımdadır, duaların, Quranın köməyilə, surələr oxumaqla bizim xırda-para xəstəliyimizi, yara-xoralarımızı aradan qaldırardı.

Məndə qeyri-adiliyin ilk əlamətləri olubmu, nə vaxt üzə çıxıb o əlamətlər? Düzü, bu suala cavab verməyə çətinlik çəkirəm. Bircə o yadımda qalıb ki, mən, başıma nə gəlsə – lap balacalıqdan – anama demişəm. Anam da yumşaq, həlim adam olub, bir dəfə də olsun, mənim, ya da qardaşlarımın, bacılarımın, gəlinlərinin xətrinə dəyməyib *(biz beş qardaş, üç bacı olmuşuq, bacılarımdan biri Şahlıq – 4-5 yaşında dünyasını dəyişib, qalanları indi də Qarayazıda yaşayırlar).*

*"Bu dünyanın, yəni ömrün bir qurtaracağı var, insan nə vaxtsa ölür, sən də, mən də – hamımız öləcəyik"...* Beş-altı yaşında olarkən, bu amansız sözləri eşitdiyim gün, çölə tut yeməyə getdiyimiz o amansız gün indi də yadımdadı; ilk dəfə eşitdiyim bu sözlərin ağırlığı altında, ayağımı cırmalayıb sulanmış biçənəkdən keçə-keçə, göz-

lərim yaşara-yaşara evə necə qayıtdığımı bəlkə də anbaan xatırlayıram. Evə çatan kimi anama ilk sözüm bu oldu: *"Anacan, mən bir də gələcəyəmmi bu dünyaya?"* İndiki tələsməyim, vaxt qıtlığından gecə-gündüz uşaq kimi gileylənməyim də sanki o gündən başlayıb. Mənə elə gəlir ki, nəinki günlər, hətta aylar da gödəlib.

İndi də hərdən o gün gözümün qabağına gəlir və hər dəfə də elə bilirəm ki, yox, mən mütləq bu dünyaya bir də qayıdacağam. Sonralar, lap sonralar belə bir şeir də yazmışdım: "Gözləyin dünyaya qayıtmağım var":

*Bu dünyaya bir də qayıtmağım var,*
*Qəbrimin üstündə bitən gülləri.*
*Uyumuş, soyumuş torpağı, daşı*
*Ölüm sükutundan oyatmağım var.*
*Bilmirəm çiçəklə, bilmirəm otla,*
*Bilmirəm ağacla, yoxsa buludla,*
*Dağları yerindən oynadıb gələn*
*Dəli qışqırıqla, yoxsa sükutla –*
*deyə bilmirəm...*

Hə, bu dünyaya bir də qayıdacağıma həmişə inanmışam, ona görə də günlərin bir günündə qapımı döyəcək ölümü, məncə, çox sakitcə qarşılayacağam. Bilmirəm necə, nə vaxt, bəlkə də yüz ildən, min ildən, milyon ildən sonra qayıdacağam, amma bu gidi dünyaya mütləq qayıdacağam...

Beləcə, bir işıqlı ümidlə yaşayırsan və bu işıqlı ümidin səni sonsuzluğa qovuşduracağına inana-inana, insanı sənin gözündən sala biləcək hər cür xırdalığın, cılızlığın, zəhlətökənliyin üstündən keçməyə özünü hazırlamalı olursan...

Mən bütün bu hissləri 1985-ci ildə “Yazıçı” nəşriyyatında buraxılmış “Anamla söhbət” kitabına yazdığım ön sözdə ifadə eləmişəm – o zaman, “Şairin kitabxanası” seriyasından çap olunan belə kitablara müəlliflər ön söz yazardılar...

Müharibə illərində, ondan sonrakı illərdə o qədər sıxılıb qalmışam və o sıxıntı adamın ruhuna elə hopub ki, elə bil, yenə yerlə göy arasında, alçaq tavanlı evlərdə olan kimi sıxılırsan, havan çatışmır, o illərin bir qisim şeirlərindəki *“boynubüküklük”* də ordan gəlir.

Ağlım kəsəndən ömrüm boyu yaddaşımdan gileylənmişəm *(bu yaddaşla orta məktəbdə on bir il əla qiymətlərlə oxumağım indi də özümə qəribə gəlir),* amma duyğu yaddaşım çox möhkəmdir, məni tərpədən bir hiss, bir duyğu əbədi, silinməz iz kimi ömürlük sinirlərimə hopur. Odur ki, bəzən bir şeiri illərlə fikrimdə-xəyalımda dolandıra-dolandıra 7-8 ilə yazıb qurtarıram, bəzən də bir gecəyə iki-üç şeir, poemadan böyük bir parça yazıram.

Bütün bunlar mənim taleyimin mənə verdiyi *“qeyri-adiliklərdir...”*

Məncə, bütün zərurətlər təsadüfdən doğur; mənim ədəbiyyata, şeirə gəlməyimi təsadüfi saymaq olarmı – bilmirəm. Bircə onu bilirəm ki, orta məktəbdə oxuyarkən, ədəbiyyat müəllimimin təkidi ilə, 1956-cı ildə ilk şeirimi yazmışam. Məktəbimizdə məzunlarla görüş keçirilməli idi; ədəbiyyat müəllimim dedi ki, sən mütləq bir şeir yazıb o görüşdə oxumalısan. Onda doqquzuncu sinifdə idim, boyum da yaman balaca idi. Mən şeiri yazdım. Kətilin üstünə çıxıb oxuyası oldum. Sonra o şeir rayon qəzetində – “Stalinçi” qəzetində dərc edildi. Ondan qabaq, 8-ci sinifdə oxuyanda ilk cızma-qaramı eləmişdim. Bax, mənə elə gəlir ki, o cızma-qara olmasaydı, heç vaxt şeir

yazmayacaqdım. Niyə? Orta məktəbdə rəqabət hissi güclü olur. Mənim xəttim qəşəng idi, divar qəzetinin redaktoru idim. Bir gün “rəqibim” bir şeir verdi mənə – öz şeirini, divar qəzetində çap elədik. Dedim: *“Mənə nə olub, niyə o yazsın, mən yazmayım?”* Ertəsi gün dediyim cızma-qaranı yazdım... Mən öz *“rəqibimə” (indi o, alimdir – Bakı Texniki Universitetinin təcrübəli müəllimidir – İmdad Tağıyevi deyirəm)* minnətdaram...

Sonrakı ürəklənib bir neçə şeir də yazdım. Bakıya, şair Məmməd İbrahimə *(Məmməd Araz)* göndərdim. Aldığım cavabdakı bir fikir məni möhkəm silkələdi: hər şeydə şeir var – dağda, düzdə, üfüqdə, buludda, yağışda... Uzun bir məktub idi, sonuna çatanda heyrətləndim: mənim şeirlərimdən bir kəlmə də yazılmamışdı. Ürəyimdə şairdən küsdüm, dedim, yəqin heç oxumayıb. Sonralar hər şey aydın oldu – şair həssaslığının nə demək olduğunu anladım...

Düz otuz dörd ildən sonra həmin şair – Məmməd Araz mənim Azərbaycan Dövlət Nəşriyyatında buraxılan *(1991)* “Seçilmiş əsərləri”mə *(50 yaşım münasibətilə çap olunmuşdu)* ön söz yazası oldu. Yazı-pozularıma yüksək qiymət verdi. Qəribə təsadüfdü, elə deyilmi?

Mənə elə gəlir ki, vəhy dediyimiz – ilhamdı; gecənin hansı vədəsindəsə bir fikir məni yuxudan oyadır, rahatlıq vermir, ikicə-üçcə misraya çevrilib kağıza köçürülməyincə yaxamdan əl çəkmir. İlhamsız-vəhysiz yazdıqlarım – məncə könülsüz yazdıqlarımdı, o yazılar mənim ürəyimi yerindən oynatmırsa, kimi silkələyə bilər – heç kimi... Daha çox günün hansı vaxtında şeir yazdığımı deyə bilmərəm; amma bir onu bilirəm ki, gecələri çox xoşlayıram. Mən gecələrə şeirlərimin birində *“şair gecə”* deyirəm. Gecələr sirlə, anlaşılmaz hisslərlə-duyğularla doludur, elə bu özü şeir deyilmi?